

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 3 aprel 2026-cı il №22 (3024) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyevin sosial media hesablarında Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilib




Azərbaycan Prezidenti İlham Əliyevin sosial media hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edilib.

AZƏRTAC paylaşımı təqdim edir.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva sosial şəbəkə hesablarında 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Soyqırımı qurbanlarının nurlu xatirəsini ehtiramla yad edirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

*Aprel döyüşləri - 10 il*

## Böyük Qələbənin başlanğıcından tarixi Zəfərə gedən şərəfli və qürurlu yol



2016-cı ilin aprel ayının ilk günləri… Hər zaman olduğu kimi, bu günlərdə də Azərbaycan Ordusunun bölmələri öz mövqelərində günün nizam qaydalarına uyğun olaraq fəaliyyətləri icra edirdilər. Lakin öz məkrli niyyətindən əl çəkməyən ermənilər təxribat törətməyə cəhd göstərdilər. Aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri ordumuzun ön xətt mövqelərinə və yaşayış məntəqələrimizə intensiv artilleriya atəşi ilə hücuma başladı. Azərbaycan Ordusunun bölmələri bu irimiqyaslı təxribatın qarşısını qətiyyətlə aldı, əks-həmlə ilə düşməni geri çəkilməyə məcbur etdi. Şanlı hərb tariximizə Aprel döyüşləri kimi həkk olunan bu əks-həmlə əməliyyatı Azərbaycan Ordusunun Qələbəsi ilə başa çatdı.

Bu qələbə yalnız bir hərbi uğur deyil, həm də xalqımızın sarsılmaz iradəsinin, dövlətimizin gücünün və ordumuzun peşəkarlığının bariz nümunəsi idi.

1994-cü ildə imzalanmış atəşkəs haqqında Sazişdən sonra ən şiddətli qarşıdurma olan Aprel döyüşləri zamanı ordumuz düşmənə sarsıdıcı zərbələr vurdu. Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi, Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi və Tərtər rayonu istiqamətində işğal altında olan 2000 hektardan çox ərazi azad edildi və 1000 hektarlarla ərazi ordumuzun nəzarəti altına keçdi.

Beləliklə, uzun illər davam edən durğunluqdan sonra ilk dəfə olaraq cəbhə xəttində real dəyişiklik baş verdi və nəticədə strateji üstünlük Azərbaycan Ordusunun tərəfinə keçdi.

(Ardı 4-cü səhifədə)

## Azərbaycan Respublikasının müdafiə naziri Türkiyə və Qətər tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerə və Qətərin baş nazirinin müavini və müdafiə işləri üzrə dövlət naziri Əlahəzrət Şeyx Saud bin Əbdülrəhman bin Həsən Al Taniyə başsağlığı verib.

Başsağlığında deyilir: "Qətər-Türkiyə Birləşik Müştərək Qüvvələr Komandanlığı çərçivəsində təlim uçuşu həyata keçirən Qətər Silahlı Qüvvələrinə məxsus helikopterin texniki nasazlıq səbəbindən dənizə düşməsi, qəza nəticəsində Türkiyə Silahlı Qüvvələrinin bir hərbi qulluqçusunun, ASELSAN şirkətinin iki texniki əməkdaşının və Qətər Silahlı Qüvvələrinin dörd hərbi qulluqçusunun həlak olması xəbəri məni dərindən kədərləndirdi.

Həlak olanlara Allahdan rəhmət diləyir, yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin".

## Ömürlərini Vətənə fəda edən qəhrəmanlarımız



Aprel döyüşləri hərb tariximizin şanlı səhifələrindəndir. Birinci Qarabağ müharibəsindən sonra cəbhədə ən ağır döyüşlər məhz 2016-cı il aprelin 2-dən 5-dək davam etdi. Həmin vaxt Ermənistan işğal etdiyi ərazilərdən ordusunu geri çəkmək əvəzinə, yeni ərazilərin iddiasına düşdü. Lakin güclü Azərbaycan Ordusunun ön xətdə yerləşən bölmələri düşməni istəyinə nail olmağa qoymadı. Ordumuz düşmənə ağır itkilər verdi, strateji yüksəklikləri azad etdi. Bu döyüşlərdə əbədiyyət zirvəsinə yüksələn oğullarımız adını şanlı tariximizə yazmaqla qazanılan qələbədə qanı və canı ilə pay sahibi oldular.

Polkovnik-leytenant **Murad Mirzəyev** 31 mart 1976-cı ildə Sabirabad rayonunun Muğan Gəncəli kəndində anadan olub. Uşaqlıq illərindən hərb sənətinə böyük maraq göstərən Murad bu istiqamətdə ilk addımını 1991-1994-cü illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsil almaqla atıb. Daha sonra 1994-1998-ci illərdə Türkiyə Ali Hərbi Quru Qoşunları Məktəbində təhsil alaraq peşəkar zabit kimi formalaşıb, beynəlxalq təlimlərdə iştirak edərək bilik və bacarıqlarını daha da inkişaf etdirib.

(Ardı 4-cü səhifədə)

## Ötən ay 503 mina və 4922 partlamamış hərbi sursat zərərsizləşdirilib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən mart ayında icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumat açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildirilib ki, ötən ay Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 236, tank əleyhinə 267 mina və 4922 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həmçinin 5336,5 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bəyanatı

İran İslam Respublikasının ərazisindən Türkiyə Respublikasının ərazisinə ballistik raketin buraxılmasını qətiyyətlə pisləyirik.

Qardaş Türkiyə ilə həmrəyliyimizi ifadə edir, onun təhlükəsizliyi və ərazi bütövlüyünə sarsılmaz dəstəyimizi bir daha təsdiqləyirik.

## Polkovnik Rüstəm bəy Şıxlinski



Rüstəm bəy Məmməd ağa oğlu Şıxlinski 1878-ci ildə Yelizavetpol quberniyasının Qazax qəzasının Qazaxlı kəndində (indiki Qazax rayonunun Aşağı Salahlı kəndində) dünyaya gəlib. O, general-leytenant Əlağa Şıxlinskinin qardaşı oğlu, general-mayor Cavad bəy Şıxlinskinin qardaşı, yazıçı İsmayıl Şıxlının dayısıdır.

Rüstəm bəy ümumi təhsilini zadəgan övladlarının təhsil alması üçün nəzərdə tutulan Tiflis Kadet Korpusunda alıb, sonra isə Sankt-Peterburqdakı Mixaylovskoye Artilleriya Məktəbinə qəbul olaraq kursant kimi hərbi xidmətə başlayıb. Məzun olduqdan sonra "podporuçik" hərbi rütbəsi ilə 1-ci Qafqaz Ordusu Korpusunun 39-cu Artilleriya Briqadasına göndərilib. 1 yanvar 1909-cu ildə "ştabs-kapitan" rütbəsinə yüksəlib. 1910-cu ildən 1-ci Qafqaz Atıcı Artilleriya Diviziyasında xidmət edib.

Birinci Dünya müharibəsində 1-ci Qafqaz Atıcı Artilleriya Diviziyasında döyüşüb.

(Ardı 5-ci səhifədə)

## Türkiyə Müdafiə Nazirliyi: Qardaşlarımıza qarşı törədilən soyqırımını unutmamışıq, unutmayacağıq və unutdurmayacağıq!

Martın 31-də Türkiyə Milli Müdafiə Nazirliyi Azərbaycan soyqırımı qurbanlarının xatirəsini anıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Milli Müdafiə Nazirliyinin Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşımında 1918-ci ilin faciəli hadisələrinin bəşər tarixində "qara ləkə" olduğu qeyd edilib.

"Minlərlə günahsız Azərbaycan türkü erməni quldur dəstələri tərəfindən vəhşicəsinə qətlə yetirilib. Biz qardaşlarımıza qarşı törədilən soyqırımını unutmamışıq, unutmayacağıq və unutdurmayacağıq!" - deyə Türkiyə Milli Müdafiə Nazirliyi vurğulayıb.



# Müdafiə Nazirliyinin rəhbərliyi hərbi hospitalda olub

*Martın 24-də Müdafiə Nazirliyinin rəhbər heyəti nazirliyin Baş Klinik Hospitalında müalicə olunan hərbi qulluqçuları ziyarət edib.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri düzülüb, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib.

Müalicə alan şəxsi heyətin səhhəti ilə maraqlanan nazirliyin rəhbər heyəti onların ən qısa müddətdə sağlamlıqlarını bərpa edərək xidmət yerlərinə qayıtmalarını arzulayıb.

Hərbi qulluqçulara yüksək peşəkarlıq və qayğı ilə xidmətin göstərildiyinə görə tibbi personala təşəkkür edilib.

Hərbi tibb müəssisəsində yaradılan şəraitə, eləcə də göstərilən hərtərəfli diqqət və qayğıya görə hospitalın kollektivi və müalicə olunan hərbi qulluqçular Ali Baş Komandan cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.







# Yeni hərbi obyektlər istifadəyə verilib





Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsi, bölmələrin sosial-məişət şəraitinin yaxşılaşdırılması, eləcə də şəxsi heyətin peşəkarlığının artırılması istiqamətində həyata keçirilən tədbirlər uğurla davam etdirilir.

Müdafiə Nazirliyinin rəhbər heyəti Mühəndis Qoşunlarının Mühəndis-İstehkam Mərkəzinin, Psixoloji Təminat İdarəsi və Bakı Hərbi Psixoloji Sağlamlıq Mərkəzinin, eləcə də Hüquq İdarəsinin inzibati binalarının açılışında iştirak edib. Həmçinin Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Bakı Hərbi Kollecində və Müdafiə Nazirliyinin Baş Klinik Hospitalının Təcili tibbi yardım bölməsində görülən işlərlə tanış olub.

Müdafiə Nazirliyi xəbər verir ki, yeni istifadəyə verilən Mühəndis-İstehkam Mərkəzində kiçik mütəxəssislərin hazırlanması və ərazinin minalardan təmizlənməsi üçün müasir standartlara cavab verən simulyator sistemləri quraşdırılıb.

Mərkəzin ərazisində yaradılan şəraitlə tanış olan heyət yanğınsöndürmə deposuna, qarovul otağına, avtomobil parkına, mühəndis döyüş sursatları, hərbi-texniki əmlak, raket-artilleriya silahları, sursat və əşya anbarlarına, eləcə də Mühəndis Qoşunlarının poliqonunda döyüş hazırlığı prosesində istifadə olunan təlim yerlərinə baxış keçirib.

Əlavə olaraq, rəhbər heyətə mərkəzin maddi-texniki təminatının gücləndirilməsi məqsədilə yeni alınmış mühəndis silahlandırma vasitələri və müasir mexaniki minatəmizləmə avadanlıqları nümayiş etdirilib, onların taktiki-texniki xüsusiyyətləri və tətbiq imkanları barədə ətraflı məlumat verilib.

Azərbaycan Ordusunun şəxsi heyətinin psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması məqsədilə aparılan ştat-struktur islahatları çərçivəsində yeni yaradılan Psixoloji Təminat İdarəsinin və Bakı Hərbi Psixoloji Sağlamlıq Mərkəzinin əsaslı təmir olunmuş inzibati binaları istifadəyə verilib.

Burada psixoloji xidmətin spesifik tələbləri əsas götürülərək şəxsi heyətin psixoloji dözümlülüyünün artırılması və posttravmatik vəziyyətin bərpası məqsədilə xüsusi terapiya otaqları, eləcə də hərbi psixoloqların hazırlığı və metodiki sənədləşmənin aparılması üçün iş otaqları yaradılıb.

Regionda ilkin təcrübəyə malik olan, hərbi və mülki psixoloqların birgə fəaliyyət göstərəcəyi mərkəz Azərbaycan Ordusunun hərbi qulluqçularının və onların ailə üzvlərinin psixoloji rifahının qorunması və inkişaf etdirilməsinə xidmət edəcək.

Yeni təsis edilmiş mərkəzdə fərdi və qrup psixoterapiyası, psixoloji diaqnostika, konsultasiya, stress və travma sonrası psixoloji reabilitasiya, həmçinin uşaq və yeniyetmələrin psixoloji inkişafının dəstəklənməsi məqsədilə zəruri xidmətlərin göstərilməsi də nəzərdə tutulub.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi Hüquq İdarəsinin yeni istifadəyə verilmiş inzibati binasının açılışında olub. Burada rəhbər heyətə məlumat verilib ki, Hüquq İdarəsi müxtəlif hərbi hüquqi məsələləri tənzimləyən və müdafiə sahəsindəki qanunvericiliyə uyğun fəaliyyət göstərən bir qurumdur.

İdarə, Azərbaycan Ordusunun şəxsi heyətinə hüquqi məsləhətlərin verilməsi, hərbi cinayətlərə qarşı mübarizə, eləcə də beynəlxalq hüquq məsələlərini tənzimləyir. Hüquq İdarəsinin fəaliyyətinin əsas məqsədi, Müdafiə Nazirliyinin tabeliyində olan qoşun və qüvvələrin fəaliyyətini hüquqi baxımdan dəstəkləmək və mövcud qanunlara riayət olunmasını təmin etməkdir.









# Azərbaycanın müdafiə naziri MDB Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib



Rusiya Federasiyasında işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov aprelin 2-də Moskvada keçirilən Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak edib.

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə MDB-yə üzv ölkələrin müdafiə nazirləri fəxri qarovulun və hərbi orkestrin müşayiəti ilə Moskva şəhərindəki Qələbə abidəsinin önünə əklil və gül dəstələri qoyublar. Nümayəndə heyəti rəhbərlərinin xatirə fotosu çəkdirilib.

Keçirilən məhdud tərkibli iclasda ölkələrimiz arasındakı regional təhlükəsizlik və hərbi əməkdaşlıq məsələlərinin müxtəlif aspektləri, həmçinin digər məsələlər müzakirə olunub.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənovun rusiyalı həmkarı cənab Andrey Belousov ilə ikitərəfli görüşü də olub.



Görüşdə Azərbaycan ilə Rusiya arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və inkişafı perspektivləri müzakirə edilib.







# Şəhid pilotlarımızın xatirəsi ehtiramla yad edilib

2016-cı ilin Aprel döyüşləri zamanı qəhrəmancasına şəhid olan hərbi pilotlarımız - mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə və baş leytenant Əbu Bəkir İsmayılovun anım günü münasibətilə mərasim keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, Hərbi Memorial Məzarlıqda keçirilən tədbirdə müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin (HHQ) komandanı general-leytenant Namiq İslamzadə, Müdafiə Nazirliyinin əməkdaşları, ictimaiyyətin nümayəndələri, şəhidin ailə üzvləri və yaxınları iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin məzarları ziyarət edilərək önünə əklil və gül dəstələri düzülüb, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Mərasimdə çıxış edənlər şəhidlərimizin şərəfli xidmət yolundan, vətənpərvərliyindən və peşəkarlığından danışıb, onların gənc pilotlara örnək olduğunu qeyd ediblər.

Bildirilib ki, hərbi qulluqçularımızın əməliyyatlar zamanı döyüş meydanında nümayiş etdirdikləri şücaət və qəhrəmanlıq sayəsində torpaqlarımız işğaldan azad edildi və bu gün həmin ərazilərdə şanlı üçrəngli Azərbaycan bayrağı fəxarətlə dalğalanır. Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi xalqımızın qəlbində daima yaşayacaqdır.

Tədbir çərçivəsində general-leytenant Namiq İslamzadə şəhid ailələri ilə görüşərək onların qayğıları ilə maraqlanıb.

Görüş zamanı şəhidlərimizin ailə üzvləri və yaxınları göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildiriblər.







# “Qısa müddətdə Talış yüksəkliyi istiqamətində düşmənin 22 postunu ələ keçirdik”

2016-cı il aprel ayının 1-nə qədər demək olar ki, hər gün düşmən təxribatlarının şahidi olurduq. Aprelin 1-i bu təxribatlar pik həddə çatdı. Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində dinc əhali arasında yaralananlarımız, şəhid olanlarımız oldu. Düşmən ağır artilleriyadan, iriçaplı silahlardan yaşayış məntəqələrini atəşə tuturdu və Azərbaycan Ordusu bu təxribatın qarşısını almaq üçün əks-hücum tapşırığını icra etdi. Qarşıya qoyulan tapşırıqlar yüksək dəqiqliklə icra olundu. Lələtəpə yüksəkliyi və digər strateji postlar, dayaq məntəqələri Azərbaycan Ordusunun nəzarəti altına keçdi.

Bu sözləri AZƏRTAC-a açıqlamasında Xüsusi Təyinatlı Qüvvələrin ehtiyatda olan zabiti, Aprel döyüşlərinin qazisi, "Böyük Qayıdış" Gənclər Təşkilatı İctimai Birliyinin sədr müavini Əhliyət Mehdiyev bildirib.

O qeyd edib ki, Aprel döyüşləri Azərbaycan hərb tarixinə şanlı qələbənin ilk müjdəçisi kimi həkk olunub: "Düşmən elə zənn edirdi ki, bizi pusquya salıb. Lakin çevik manevrlərimiz və koordinasiyalı atəş dəstəyimiz sayəsində itki vermədən onların səngərlərinə daxil olduq. Talış yüksəkliyi istiqamətində qısa müddətdə düşmənin 22 postunu ələ keçirdik. Düşmən itirdiyi mövqeləri geri qaytarmaq üçün böyük qüvvə cəmləşdirib əks-hücuma keçsə də, döyüşçülərimiz son nəfəsinə qədər vuruşaraq həmin strateji yüksəklikləri qoruyub saxladılar. O döyüşlərdə komandirlərimiz və silahdaşlarımızın hər biri əsl qəhrəmanlıq dastanı yazdı".

"Aprelin 2-dən 3-nə keçən gecə, səhərə yaxın düşmən itirdikləri mövqeyi geri qaytarmaq üçün həmin ərazilərə aramsız mərmi yağdırırdı. Mərmilərdən biri mənim olduğum yerə düşdü. Dəhşətli partlayış oldu. Mən və döyüş yoldaşım orada yaralandıq", - deyən qazi o günləri xatırlayıb.

Aprel döyüşlərinin qazisi bildirib ki, bu tarixi hadisə gələcək böyük Zəfərə gedən yolda sarsılmaz bir zəmin yaratdı: "Xalqımızın uzun illərdir Azərbaycan Ordusundan böyük gözləntisi var idi. Aprel döyüşlərində əldə etdiyimiz qələbə göstərdi ki, əgər ordumuzun yalnız kiçik kəşfiyyat bölmələri cəlb olunmaqla belə böyük uğur qazanırıqsa, deməli, Azərbaycan əsgəri Müzəffər Ali Baş Komandanın verəcəyi döyüş əmri ilə bütün torpaqlarımızı azad etməyə tam qadirdir. Biz 44 günlük Vətən müharibəsində bunun canlı şahidi olduq. İnanıram ki, Azərbaycan xalqı qəhrəman şəhidlərimizi, onların ailə üzvlərini və müharibə iştirakçılarını heç vaxt unutmayacaq, onlara olan sevgi və ehtiram hər zaman uca tutulacaq".

# Böyük Qələbənin başlanğıcından tarixi Zəfərə gedən şərəfli və qürurlu yol

(Əvvəli 1-ci səhifədə)

Düşmən itirilmiş mövqeləri geri qaytarmaq məqsədilə mövqelərimizə yenidən hücum etməyə cəhd göstərdi. Ordu hissələrimizin şücaətini görən düşmənin döyüşü davam etdirməyə gücü tab gətirmədi.

Azərbaycan Ordusu qazandığı qələbə ilə düşmənin illərdir formalaşdırdığı "məğlubedilməz ordu" mifini tamamilə darmadağın etdi. Bu döyüşlər ordumuzun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu bütün dünyaya göstərdi. İgid oğullarımız öz şücaətləri ilə sübut etdilər ki, Azərbaycan Ordusu düşmənin istənilən miqyaslı təxribatının qarşısını almağa, torpaqlarımızı azad etməyə tam hazır və qadirdir.

Eyni zamanda, Aprel döyüşləri qarşıdakı böyük Zəfərlərin mənəvi-psixoloji təməlini formalaşdırdı.

Dövlətimizin qüdrətinin ifadəsi kimi tarixləşən Aprel döyüşləri həm də Azərbaycan Ordusu ilə düşmən ordusu arasındakı gücün, peşəkarlığın, döyüş və mənəvi-psixoloji hazırlıqların fərqinin də əyani təsdiqi oldu.

Bu fərq sonrakı illərdə baş verəcək daha genişmiqyaslı əməliyyatların uğurla nəticələnəcəyinə əsaslı zəmin yaratdı.

Qazandığı qələbələrlə kifayətlənməyən ordumuz peşəkarlığını gündən-günə artırmaqla, üzərinə düşən tarixi missiyanı yerinə yetirməyə -



əgər danışıqlar prosesi məntiqi sonluqla başa çatmazsa, işğal altında olan torpaqlarımızı Ali Baş Komandanın döyüş əmri ilə azad etməyə hazırlaşırdı.

2016-cı ilin Aprel döyüşlərində qazanılan təcrübə, döyüş ruhu və inam növbəti mərhələdə daha böyük məqsədlərin reallaşdırılması üçün möhkəm baza rolunu oynadı.

2020-ci ilin 12-14 iyul tarixlərində Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində ermənilər yenidən atəşkəs rejimini pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutdu və hücuma keçməyə cəhd göstərdilər. Lakin görülən adekvat tədbirlər nəticəsində düşmənə ciddi zərbələr endirildi və o, itki verərək geri oturduldu. Beləliklə, Ermənistan silahlı qüvvələrinin bölmələrinin irəliləməsi və Azərbaycan Ordusunun mövqelərini ələ keçirməsi cəhdlərinin qarşısı bu dəfə də qətiyyətlə alındı. Artıq qarşı tərəfin bu kimi təxribatları səbrimizin sonunu daha da yaxınlaşdırırdı.

Və nəhayət, zaman yetişdi. Sonradan hərb tariximizə Vətən müharibəsi kimi həkk olunacaq şanlı Zəfərə gedən yolun ilk günü - 27 sentyabr 2020-ci il... Ermənistan silahlı qüvvələrinin bölmələri öz çirkin əməllərindən bu dəfə də əl çəkmədi... Yeni ərazilər xülyası ilə yaşayan Ermənistan silahlı qüvvələri bütün cəbhə boyu istiqamətdə genişmiqyaslı təxribatlar törətməyə cəhd etdi. Düşmənin döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə bütün cəbhə boyu istiqamətlərdə əks-hücum əməliyyatına başladı. Döyüşlər zamanı rəşadətli ordumuz Müzəffər Sərkərdəmizin rəhbərliyi ilə 30 ilə yaxın olan işğala son qoyaraq - bizə Böyük Qələbə sevincini yaşatdı.

Aprel döyüşlərində qazanılan qələbə bu Zəfərin ilk müjdəçisi, ordumuzun gücünü və xalqımızın iradəsini, həmrəyliyini dünyaya nümayiş etdirən başlanğıc nöqtəsi oldu.

2023-cü ilin 19-20 sentyabr tarixlərində respublikamızın Qarabağ iqtisadi rayonunda həyata keçirilən antiterror əməliyyatı ilə ordumuz ölkəmizin ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi.

Cəmi bir neçə saat davam edən bu uğurlu əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin qalıqları və qeyri-qanuni erməni silahlı birləşmələri zərərsizləşdirildi, dövlət suverenliyimiz, bütün ərazilərdə konstitusiya quruluşu tam bərpa olundu və Azərbaycan öz tarixində yeni bir mərhələyə qədəm qoydu. Bu isə bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən tapşırığı qısa müddətdə və yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir.

Üzərinə düşən missiyanı layiqincə yerinə yetirərək xalqımızın etimadını qazanmış Azərbaycan Ordusu bu gün də işğaldan azad olunmuş torpaqlarımızda mövqelərini möhkəmləndirməklə bərpa-quruculuq işlərinə öz layiqli töhfələrini verir.

Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri, infrastruktur layihələr və Böyük Qayıdış prosesi məhz bu qələbələrin real nəticəsidir.

Bu gün əminliklə deyə bilərik ki, Aprel döyüşlərində başlanan şanlı yol Vətən müharibəsində tarixi Zəfərlə, antiterror əməliyyatı ilə isə tam Qələbə ilə nəticələndi.

Bu şanlı tarix isə asan yazılmadı… Bu Qələbənin arxasında canını düşünmədən Vətənə fəda edən şəhidlərimizin müqəddəs qanı, cəsur hərbçilərimizin igidliyi, fədakarlığı dayanır. Hər bir qarış torpağımızın azad olunmasında onların göstərdiyi şücaət Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub.

Şəhidlərimizin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq, onların qəhrəmanlığı gələcək nəsillər üçün örnək olacaqdır. Bu gün üçrəngli bayrağımızın azad Qarabağımızın səmasında dalğalanması məhz onların bizə əmanət etdiyi müqəddəs mirasdır.

Qürurla deyə bilərik ki, Azərbaycan Ordusu qalib ordudur, Azərbaycan əsgəri qəhrəmandır, Azərbaycan xalqı isə yenilməzdir!

**Baş leytenant**
**Elçin İMANOV**
**"Azərbaycan Ordusu"**

# Ömürlərini Vətənə fəda edən qəhrəmanlarımız

(Əvvəli 1-ci səhifədə)

O, Azərbaycan Silahlı Qüvvələri sıralarında, xüsusilə Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edərək qısa müddətdə nümunəvi hərbi qulluqçu kimi tanınıb. Xidməti dövründə intizamı, liderlik keyfiyyətləri və döyüş hazırlığı ilə seçilib. Xidmət müddətində medallarla təltif olunub.

Polkovnik-leytenant Murad Mirzəyev peşəkar və yüksək hazırlıqlı kadr kimi ordumuzu ölkə xaricində də yüksək səviyyədə təmsil edib. 2005-2007-ci illərdə ABŞ-ın Virciniya ştatında ingilis dili və xüsusi təyinatlılar üçün nəzərdə tutulmuş "Ranger" kursunu yüksək səviyyədə tamamlayıb. Sonrakı illərdə 8 ölkədə, o cümlədən Türkiyə, Rumıniya, Macarıstan, Yunanıstan, İordaniya Krallığındakı kursları da üstün dərəcə ilə başa vurub.

2016-cı ilin Aprel döyüşləri zamanı zabit Murad Mirzəyev ön cəbhədə, ən çətin istiqamətlərdən birində əməliyyata rəhbərlik edib. Talış istiqamətində mühüm yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə onun rəhbərlik etdiyi bölmə xüsusi şücaət göstərib. Döyüş zamanı düşmənin üstün qüvvələrinə baxmayaraq, mövqelərin qorunmasında və hücumun davam etdirilməsində böyük əzmkarlıq nümayiş etdirib. Murad Mirzəyev aprelin 2-də qəhrəmancasına şəhid olub.

Onun nəşi 2016-cı il aprelin 11-də Bakıda İkinci Fəxri xiyabanda dəfn edilib. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə göstərdiyi igidliyə görə ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

* * *

Mayor **Samid İmanov** 1981-ci il oktyabrın 14-də Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olub. İbtidai təhsilinə 1988-ci ildə Neftçala rayonu 1 nömrəli tam orta məktəbində başlayıb. Təhsilini başa vurduqdan



sonra indiki Heydər Əliyev adına Hərbi İnstituta qəbul olub, 2003-cü ildə hərbi təhsilini fərqlənmə ilə bitirib və Ulu Öndər Heydər Əliyev tərəfindən mükafatlandırılıb.

Zabit Samid İmanov 2004-cü ildən ordu sıralarında zabit kimi Xüsusi Təyinatlı Qüvvələrin mənsubu olaraq müxtəlif vəzifələrdə xidmət edib. Samid gənc zabit olduğu dövrdən öz üzərində daim çalışıb, bilik və bacarıqlarını artırıb.

Xidməti müddətində ixtisasının incəliklərinə bələd olan təcrübəli zabit tabeliyindəki hərbi qulluqçuların da yüksək bilik və bacarığa malik döyüşçü kimi formalaşmasını özünə komandir borcu bilib.

Samid İmanov nümunəvi xidmətinə görə dəfələrlə fəxri fərman və mükafatlara layiq görülüb. Türkiyə Respublikasında "Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası", "Komando təlimi və paraşütdən sərbəst atlamaq" kurslarında iştirak edib. 2007-ci ildə "Anadolu Qartalı-2007" birgə taktiki təlimləri ilə yanaşı, Pakistan İslam Respublikasında "Ləpirçi və antiterrorist", İsveçrədə "Dağ təlimi", Rumıniyada isə "Dağa dırmanma üzrə təlimatçı" kurslarında da iştirak edib.

2014-cü ilin avqustunda Azərbaycan-Ermənistan təmas xəttində baş verən təxribatın qarşısının alınmasında fəal iştirak edib.

2016-cı ilin Aprel döyüşləri zamanı mayor Samid İmanov Talış istiqamətində gedən ağır döyüşlərin iştirakçısı olub. Onun rəhbərlik etdiyi qrup düşmənin müdafiə xəttinin yarılaraq - strateji yüksəkliklərin ələ keçirilməsində mühüm rol oynayıb. Samid döyüş zamanı böyük şücaət və fədakarlıq göstərib.

Mayor Samid İmanov aprelin 4-də döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olub. Aprelin 8-də böyüyüb boya-başa çatdığı Neftçala şəhərində Şəhidlər xiyabanında son mənzilə yola salınıb.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Samid Gülağa oğlu İmanov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb.



* * *

Polkovnik **Vüqar Yusifov** 1976-cı ildə Şəmkir rayonunun Şiştəpə kəndində doğulub. Uşaqlıqdan düşmənə nifrət hissi ilə alışıb yanan Vüqar qisas alacağına and içib, bu məqsədlə də hərbçi olmağı qərarlaşdırıb. Türkiyə Respublikasından başlanan hərbçi həyatı "Komando başlanğıc" kursundan, Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələr kursundan keçmiş, ABŞ-da "Kəşfiyyat kapitanı təkmilləşdirmə", Pakistan İslam Respublikasında "Xüsusi təyinatlı təkmilləşdirmə" kurslarında davam etmişdir. Polkovnik Vüqar Yusifov düşmənin diversiya hücumlarının qarşısının dəfələrlə alınması əməliyyatlarının fəal iştirakçısı olub. 2014-cü ilin avqustunda cəbhəyanı yaşayış sahələrində düşmənin təxribatının qarşısının alınmasında xüsusi xidmətlər göstərib, komandanlığın əmrini qüsursuz icra edib. 2016-cı il aprelin 4-də Tərtər rayonunun Talış yüksəkliyi uğrunda gedən qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib.

Vüqar Yusifov ölümündən sonra göstərdiyi igidliyə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

* * *

Mayor **Elnur Əliyev** 1976-cı ilin 16 avqustunda Füzuli rayonunun Dədəli kəndində anadan olub. Hərbi peşəni özünə həyat amalı seçəndə hələ doğma kəndləri işğal olunmamışdı. Ermənilər torpaqlarımıza qarşı iddia qaldırıb döyüşlərə başlayanda kən-



din cavanları kimi, o da gedib könüllü dəstəyə yazılmışdı. Lakin atası ona Vətəni hərbi biliklərə yiyələnəndən sonra müdafiə etməyin daha məqsədəuyğun olduğunu məsləhət edərək, birtəhər yola gətirib geri qaytarmış və hərbçi olmağı tövsiyə etmişdir.

(Ardı 7-ci səhifədə)

*Görkəmli şəxsiyyətlər*

## Polkovnik Rüstəm bəy Şıxlinski



(Əvvəli 1-ci səhifədə)

Müharibədə göstərdiyi igidliyə görə müxtəlif orden və medalla mükafatlandırılıb. 1915-ci ildə hərbi xidmətdə göstərdiyi şücaətə görə üzərində "İgidliyə görə" yazısı olan 4-cü dərəcəli "Müqəddəs Anna", "Müqəddəs Georgi" və 4-cü dərəcəli "Müqəddəs Vladimir" (qılınc və yayla birgə) ordeni ilə təltif edilib.

1917-ci ilin sonlarında Rüstəm bəy Azərbaycana geri dönüb. Vətənə geri döndükdən sonra Qafqaz Cəbhəsinin Baş Komandanı general M.A.Prejevalskinin əmri ilə yeni formalaşdırılan Müsəlman Korpusunda xidmətə başlayıb. Bu korpusun komandanı general-leytenant Əlağa Şıxlinski idi. 1918-ci ilin iyulun əvvəlində bu korpus ləğv edilib və Anadoludan yenicə gələn dəstələrlə birlikdə Nuru Paşanın komandanlığı ilə formalaşdırılan Qafqaz İslam Ordusunun tərkibinə daxil edilib. Bu zaman "podpolkovnik" rütbəsində olan Rüstəm bəy Şıxlinski yeni yaradılan Ağır Artilleriya Diviziyasının komandiri təyin edilib. O, bundan sonra Azərbaycan Xalq Cümhuriyyəti Ordusunda xidmətini davam etdirib. Polkovnik Rüstəm bəy Şıxlinski 1918-ci ildə Ağdamdakı pulemyot məktəbinin rəisi və Topçu hissəsinin komandiri kimi fəaliyyət göstərib.

O, 2-ci Dağ Artilleriya Diviziyasına, 5 fevral 1919-cu ildən isə Əlahiddə Haubitsa Diviziyasına komandanlıq edib. 28 fevralda "polkovnik" rütbəsinə yüksəlib.

Azərbaycan Ordusuna daxil olan hərbçilərin peşəkarlıq səviyyəsini artırmaq, yeni vətəndaşları orduya cəlb etmək üçün 1919-cu ilin oktyabrında Azərbaycan Respublikasının praporşik məktəbinin bazasında piyada, artilleriya, mühəndislik və digər şöbələrdən ibarət Hərbi Məktəb yaradılıb. Müxtəlif dövrlərdə məktəbə polkovnik Şirin bəy Kəsəmənli, polkovnik Rüstəm bəy Şıxlinski və general-mayor Konstantin Çxeidze rəhbərlik edib.

Rüstəm bəy Şıxlinski 1920-ci ildə AXC-nin bolşeviklər tərəfindən işğalına qarşı baş qaldıran Gəncə üsyanının əsas təşkilatçılarından və rəhbərlərindən biri olub. O, Gəncə üsyanı yatırıldıqdan sonra 1920-ci ildə bolşeviklər tərəfindən güllələnib.

**"Azərbaycan Ordusu"**

# Xalqımızın qan yaddaşına yazılan qanlı mart tariximiz

Bir əsrdən artıq müddətdə azərbaycanlılar ermənilər tərəfindən məqsədyönlü şəkildə soyqırımı və etnik təmizləmə siyasətinə məruz qalıblar. Bu siyasətin tərkib hissəsi olaraq türk və müsəlman olan azərbaycanlılara qarşı hələ XX əsrin əvvəllərindən etibarən Azərbaycanda və indiki Ermənistan ərazisində sistematik şəkildə və xüsusi amansızlıqla soyqırımı cinayətləri törədilib. 1918-ci ildə azərbaycanlılara qarşı törədilmiş növbəti soyqırımı aktları tariximizin ən qanlı səhifələrindən biri, o cümlədən etnik və dini nifrət zəminində kütləvi şəkildə törədilmiş mart qırğınları olaraq yaddaşlarda həkk edilib.

Respublikamız yenidən müstəqilliyini qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edildi. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Xalqımıza qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biri idi.

"Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirməyə başladılar. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki tarixi Azərbaycan kəndlərini əhatə etdi. Bu qanlı hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədib, azərbaycanlıların mənfi obrazını yaradaraq, özlərinin avantürist torpaq iddialarını pərdələdilər.

Birinci Dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən əks-inqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumilikdə Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Rusiyada baş vermiş Oktyabr inqilabının nəticəsində Stepan Şaumyanın başçılıq etdiyi bolşevik Bakı Soveti quberniyada hakimiyyəti ələ keçirməyə nail oldu. Etnik erməni olan və Britaniya hökumətindən milyon qızıl rubl məbləğində ilkin yardım alan S.Şaumyan Bakıda azərbaycanlılara qarşı bolşeviklərlə erməni millətçilərinin əməkdaşlığını təmin etdi.

Bakıda qırğın törədilməsinə hələ 1918-ci ilin yanvarında cəhd edilir. Müsəlman korpusunun komandiri general Talışınskinin həbsi şəhərin türk-müsəlman əhalisində ciddi qəzəb doğurur. Bundan istifadə edən ermənilər isə silahlı toqquşmaya cəhd göstərdilər. Lakin ermənilərin yanvar ayında qırğın törətmək planları baş tutmadı. Hələ general Talışınski Bakıya gəlməzdən bir neçə gün əvvəl bolşevik rəhbəri V.İ.Lenin Bakı Sovetinin başçısı Şaumyana belə bir məzmunda teleqram göndərirdi: "Hörmətli yoldaş Şaumyan, məktubunuz üçün təşəkkür edirəm. Sizin düşünülmüş siyasətiniz bizə çox xoşdur və yaranmış vəziyyətdə siyasətinizin daha dərin və ehtiyatlı diplomatiya ilə birgə tətbiq edilməsini məqsədəuyğun sayır və nəticədə qələbə çalacağımıza əminik. Çətinliklər gözlənilməzdir, indiyədək biz yalnızca imperialistlər arasında narazılıqlar və münaqişələr nəticəsində irəli getmişik. Bu konfliktləri işlətməyi öyrənin, hal-hazırda diplomatiyanı öyrətmək vacibdir. Bütün dostlara xoş arzular və salamlar".



Ermənilər öz məkrli niyyətlərini mart ayında həyata keçirə bildilər. Şaumyan Bakı Sovetinin iclasında bildirirdi ki, bu təşkilat Zaqafqaziyada vətəndaş müharibəsinin başlıca istehkamına çevrilməlidir. Toqquşmanın başlanması üçün bəhanə isə Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmmədin cənazəsinin "Evelina" gəmisində Lənkərandan Bakıya gətirilməsini təşkil edən 48 hərbçinin gəlişi oldu. Ermənilər şayiə yaydılar ki, guya bu zabitlər Muğandakı malakan kəndlərini dağıtmaq barədə göstəriş alıblar. Bunu bəhanə gətirən Şaumyan gəmidəki zabitlərin tərk-silah olunması üçün göstəriş verdi. Buna etiraz edən yerli əhali isə küçələrə çıxıb zabitlərin tərksilah olunmasına etirazını bildirdi. Beləliklə, dinc əhaliyə qarşı soyqırımı başladı. Belə ki, təxminən 7 min erməni əsgəri müxtəlif cəbhələrdən Bakıya gətirildi. Bundan başqa, "Qırmızı qvardiya" adı altında yaradılan 10-12 minlik ordunun da 70 faizi ermənilərdən ibarət idi. Qabaqcadan hazırlanan anlaşmaya əsasən, bolşevik-erməni koalisiyası cəbhə boyu hücuma keçir. 1918-ci il martın 30-da erməni kilsəsi yanında toplaşan daşnak dəstəsi müsəlmanlara ilk atəş açdı. Təpədən-dırnağadək silahlanmış erməni əsgərləri müsəlmanların evlərinə basqınlar edərək onları vəhşicəsinə öldürür, körpələrə və qocalara aman vermirdilər. Qadınlar daha ağır şəkildə öldürülürdü. Arxiv materiallarına əsasən qulaqları, burunları kəsilən, orqanları parça-parça edilən 37 qadının meyiti tapılmışdı.

Xalqımızın görkəmli oğlu Nəriman Nərimanov erməni vəhşilərinin törətdikləri qətliamlar haqqında belə bəhs edirdi: "Bolşevik olan bir müsəlmana belə aman verilmədi. Müsəlmanlara qarşı hər cür cinayəti etdilər. Nəinki kişilər, hətta hamilə qadınlar da daşnaklardan canlarını qurtara bilmədilər".

31 mart səhər tezdən bolşevik-daşnak dəstələri azərbaycanlılar yaşayan "Kərpicxana", "Məmmədli" və başqa məhəllələrə hücum etdilər. Həmin məhəllələri havadan təyyarələr, dənizdən isə hərbi gəmilər bombalamağa başladı. Ermənilər rusları inandırmışdılar ki, guya İçərişəhərdə azərbaycanlılar rusları qırıblar. Matroslar bunun yalan olduğunu bildikdən sonra atəşi dayandırsalar da artıq gec idi, alova bürünmüş məhəllələrdə ölənlərin sayı-hesabı yox idi. Erməni daşnak qüvvələri heç kimə rəhm etmirdi, qarşılarına çıxan hər kəsi türk deyə dərhal qətlə yetirirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə müsəlman olmağın kifayətdir". Onlar evləri qarət edir, adamları yandırır, hamilə qadınları ağlasığmaz işgəncələrlə qətlə yetirirdilər. Ermənilər azərbaycanlılara məxsus məktəbləri, kitabxanaları, mədəniyyət ocaqlarının hamısını yandırırdılar. Hətta İçərişəhərə hücum zamanı Bakının ən gözəl memarlıq abidələrindən olan "İsmailiyyə" binası yandırılır, "Açıq söz", "Kaspi", "Baku" qəzetləri redaksiyaları dağıdılır, "Təzəpir" məscidinin minarələri isə top atəşi ilə deşik-deşik edilirdi.

Mart soyqırımı zamanı təkcə Bakıda 12 mindən çox adam qətlə yetirildi. Bolşevik-daşnak dəstələrinin bu vəhşilikləri ancaq Bakı ilə bitmir. Onlar Quba, Şamaxı, Kürdəmir, Salyan, Naxçıvan və Lənkəran qəzalarında da soyqırımı davam etdirmişdilər.

Ermənilər bütün Azərbaycanı işğal etməyə cəhd göstərirdilər. Onlar bu dəfə Qarabağda yaşayan ermənilərlə birləşib Gəncəyə hücuma hazırlaşırdılar. Lakin 1918-ci ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması, Azərbaycanın ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinin başlanması işğalçıların bütün planlarını pozdu.

Mart hadisələri əslində bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın idi. Bu qırğının əsas təşkilatçısı olan Şaumyan özü də 1918-ci il aprelin 13-də rəsmi məktubunda etiraf edirdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvəmiz var idi... "Daşnaksütyun"un da üç-dörd min nəfərlik milli hissələri var idi ki, bunlar da bizim ixtiyarımızda idi. Milli hissələrin iştirakı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildir. Biz bilərəkdən buna yol verdik".

1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Lənkəran, Naxçıvan və digər ərazilərdə erməni faşistləri 50 min azərbaycanlını qətlə yetirib, 10 minlərlə insanı öz ata-baba yurdundan qovublar. Bu qətliamlar Azərbaycan xalqının tarixinə qara hərflərlə yazılıb.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirdi. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919-1920-ci illərin martın 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edildi. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımına tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi.

70 ildən sonra yenidən öz müstəqilliyinə qovuşan Azərbaycanda ermənilərin xalqımıza qarşı törətdiyi 31 mart soyqırımı faciəsinin araşdırılması və həqiqətlərin dünyaya yayılması işi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə başlanılıb. 1998-ci il martın 26-da Ulu Öndərin imzaladığı və böyük tarixi əhəmiyyət daşıyan "Azərbaycanlıların soyqırımı haqqında" Fərmanla 1918-ci il martın 31-i "Azərbaycanlıların soyqırımı günü" elan edildi. Bundan sonra həmin tarixin öyrənilməsi istiqamətində mühüm işlər görüldü, çoxlu əsərlər yazıldı və əcnəbi dillərə tərcümə olundu. Son illər bu sahədə aparılan araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanılıb. Quba şəhərində tapılan kütləvi məzarlıq bu faciənin qanlı epizodlarından biridir. 1918-ci ilin aprel-may aylarında yalnız Quba qəzasında 167 kənd tamamilə məhv edilib. Quba soyqırımı məzarlığı 2007-ci il aprelin 1-də ərazidə tikinti işləri aparılarkən aşkar olunub. 2009-cu ildə Nazirlər Kabinetinin Sərəncamına uyğun olaraq "Quba rayonunda kütləvi qətl qurbanlarının xatirəsinin əbədiləşdirilməsinə dair tədbirlər planı" təsdiq edilib, aşkar olunmuş kütləvi məzarlığın yerləşdiyi ərazidə monumental xatirə kompleksinin ucaldılması və abadlıq işlərinin aparılması qərara alınıb. Ərazidə yaradılmış Quba Soyqırımı Memorial Kompleksinin 2013-cü il sentyabrın 18-də açılışı olub. Aparılan tədqiqat zamanı müəyyən edilib ki, məzarlıqda azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələri də amansızcasına qətlə yetirilərək basdırılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli 3587 nömrəli Sərəncam imzalanıb.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı təhsil müəssisələrində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə əlaqədar silsilə anım tədbirləri keçirilib.

Müdafiə Nazirliyi xəbər verir ki, mərasimlərdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin, eləcə də soyqırımı qurbanlarının xatirələri bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirlərdə qeyd olunub ki, 1918-ci ilin 30 mart-3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, həmçinin Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə Bakı Soveti və daşnak-erməni silahlı dəstələri tərəfindən azərbaycanlılar kütləvi şəkildə vəhşicəsinə qətlə yetirilib.

Ulu Öndər Heydər Əliyevin 26 mart 1998-ci il tarixli Fərmanı ilə hər il martın 31-nin Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd olunduğu diqqətə çatdırılıb.

Çıxış edənlər Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın, eləcə də Heydər Əliyev Fondunun ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımı dəhşətlərinin dünyaya tanıdılması istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlərin əhəmiyyətini xüsusi vurğulayıblar.

Anım tədbirlərində ədəbi-bədii kompozisiyalar təqdim olunub, fotosərgilər, sənədli filmlər nümayiş etdirilib, ictimai-siyasi hazırlıq dərslərində mövzuya dair mühazirələr oxunub.

Hərbi qulluqçular tərəfindən soyqırımı qurbanlarının abidələri, eləcə də torpaqlarımızın müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olan Vətən övladlarının məzarları ziyarət olunub.

* * *

1918-ci ilin martında yaranmış çətin və gərgin vəziyyət fonunda Azərbaycanın müxtəlif bölgələrində erməni-daşnak və bolşevik silahlı dəstələri tərəfindən azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar həyata keçirildi.

Çar Rusiyasının Qafqaz cəbhəsinin dağılmasından sonra Anadoluda törətdikləri qırğınların cəzasız qalmayacağından ehtiyatlanan erməni-daşnak qüvvələri hərbi hissələrlə birlikdə Cənubi Qafqaza üz tutdular. Həmin dövrdə bölgədə tam bir anarxiya və nizamsızlıq hökm sürürdü.

Cəbhədən geri çəkilən Çar ordusunun əsgərləri Bakı vasitəsilə Rusiyaya qayıtmalı olsalar da, yol boyunca Azərbaycan kəndlərini talan edir, aclıq və səfalət içində olduqları üçün Vətənə dönmək əvəzinə, Bakı Sovetinin xidmətində qalmağa üstünlük verirdilər. Nəticədə bölgədə vəziyyət daha da gərginləşirdi.

1917-ci ilin payızından etibarən daşnak-bolşevik silahlı dəstələri Cənubi Qafqazda - tarixi Azərbaycan torpaqları sayılan İrəvan quberniyasında (indiki Ermənistan ərazisi), həmçinin Cənubi Azərbaycanda, Borçalı bölgəsində və hazırkı Azərbaycan Respublikasının müxtəlif ərazilərində dinc əhaliyə qarşı kütləvi qırğınlar törətməyə başladılar. Bu zorakılıqların ən ağır mərhələsi 1918-ci ilin mart ayına təsadüf etdi. Dinc azərbaycanlı əhaliyə qarşı həyata keçirilən kütləvi hücumlar artıq sistemli xarakter almağa başladı.

Martın 30-u axşam saatlarında isə S.Şaumyanın rəhbərliyi altında Bakı Soveti və erməni-daşnak silahlı dəstələri tərəfindən Bakı şəhərində və ətraf ərazilərdə türk və müsəlman əhaliyə qarşı kütləvi soyqırımı başlandı.

Bu tarixi faciənin unudulmaması, gənc nəslin həqiqətləri düzgün öyrənməsi və milli yaddaşın qorunması məqsədilə hər il ölkəmizdə 31 Mart - Azərbaycanlıların Soyqrımı Gününə həsr olunmuş silsilə anım tədbirləri keçirilir.

Belə tədbirlərdən biri də Heydər Əliyev adına Hərbi İnstitutda təşkil olundu. İnstitutda keçirilən anım mərasimində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı geniş məlumat verildi, tarixi faktlar diqqətə çatdırıldı.

Tədbirdə çıxış edənlər həmin dövrdə dinc əhaliyə qarşı törədilmiş qırğınların beynəlxalq hüquq baxımından soyqırımı aktı olduğunu vurğuladı, bu faciənin Azərbaycan xalqının yaddaşında silinməz izlər buraxdığını qeyd etdilər. Həmçinin bildirildi ki, bu kimi tədbirlər gənc zabit heyətinin milli ruhda tərbiyə olunmasında və tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılmasında mühüm rol oynayır.

1918-ci ilin martında baş verən qanlı hadisələr Azərbaycan xalqının tarixində dərin iz buraxmış ən ağır faciələrdən biri kimi yadda qalıb. Dinc əhaliyə qarşı törədilən kütləvi qırğınlar təkcə bir tarixi hadisə deyil, həm də xalqın yaddaşında ədalət və həqiqət uğrunda mübarizənin simvoluna çevrilib.

Bu tarixi gerçəkliklərin unudulmaması və gələcək nəsillərə düzgün şəkildə çatdırılması məqsədilə ölkəmizdə, o cümlədən Heydər Əliyev adına Hərbi İnstitutda keçirilən anım tədbirləri mühüm əhəmiyyət daşıyır. Belə tədbirlər bir daha göstərir ki, Azərbaycan xalqı öz tarixi yaddaşına sahib çıxır, şəhidlərinin və soyqırımı qurbanlarının xatirəsini daim uca tutur.

31 Mart - Azərbaycanlıların Soyqırımı Günü hər il olduğu kimi, bu gün də xalqımız tərəfindən dərin ehtiramla yad edilir və tarix heç vaxt unudulmur.

**Şəlalə CAMAL**
**"Azərbaycan Ordusu"**



31 mart qırğınları xalqımızın qan yaddaşına əbədi həkk edilib. Bu qırğınlar, qətliamlar soyqırımı aktı olaraq ölkəmizin müsəlman-türk əhalisinə qarşı erməni-bolşevik hərbi birləşmələri tərəfindən törədilmiş ən dəhşətli cinayətlər hesab olunur. 1918-ci ilin mart soyqırımı öz miqyasına və amansızlığına görə təkcə Azərbaycan tarixində deyil, bəşər tarixində də ən qanlı cinayətlərdən biridir.

Azərbaycan Hərb Tarixi Muzeyində 31 Mart - Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "31 mart soyqırımı - 108 il öncə törədilmiş qətliam" adlı tədbir keçirildi.

Anım mərasimində Müdafiə Nazirliyinin idarə və müəssisələrinin nümayəndələri iştirak etdilər.

Tədbiri muzeyin rəisi, ehtiyatda olan polkovnik Elşad Pənahov giriş nitqi ilə açaraq dedi ki, xalqımıza qarşı erməni millətçilərinin törətdiyi soyqırımı siyasətinin tarixi XVIII əsrin əvvəllərindən başlayır. "Çar Rusiyası Cənubi Qafqaza doğru öz mövqelərini genişləndirdikcə ermənilərdən bir vasitə kimi istifadə etməyə başlayır. Xalqımıza məxsus ərazilərdə ermənilərin məskunlaşdırılması ilə azərbaycanlıların öz ata-baba torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyulmuşdur. Ermənilər bu fürsətdən istifadə edərək, öz məkrli siyasətlərini həyata keçirmək, ölkəmizin tarixi ərazisində erməni dövləti qurmaq məqsədilə Azərbaycanın müxtəlif bölgələrində soydaşlarımıza qarşı dəhşətli qırğınlar törətmişdilər. Ermənilərin fasilələrlə, düşünülmüş və planlı şəkildə davam edən soyqırımı siyasəti nəticəsində minlərlə günahsız azərbaycanlı vəhşicəsinə qətlə yetirilmiş, evləri yandırılmış, əmlakları qarət olunmuşdur. Təkcə 1917-ci ilin dekabrından 1918-ci ilin martına qədər Andranikin rəhbərliyi altında erməni qoşun hissələrinin fəal iştirakı ilə İrəvan qəzasında 32 kənd, Eçmiədzin qəzasında 84 kənd, Nor-Bəyazid qəzasında 7 kənd, ümumiyyətlə, 199 kənd dağıdılmış, sakinlərin bir qismi qətlə yetirilmiş, digər bir qismi isə öz doğma ev-eşiklərindən didərgin düşmüş, əmlakları talan olunmuş, evləri isə yerlə-yeksan edilmişdir".



Muzey rəisi bildirdi ki, 1918-ci ilin 30 mart-3 aprel tarixlərində Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Qarabağ, Zəngəzur, Naxçıvan, Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Salyan və digər ərazilərdə Bakı Soveti qoşunlarının və daşnak erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımı nəticəsində rəsmi mənbələrə əsasən on minlərlə soydaşımız məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilib, yaşayış məntəqələri, tarixi abidələr, məscid və qəbiristanlıqlar viran edilib. "Bakıda təkcə bir həftə ərzində 12 mindən çox günahsız müsəlman əhali vəhşicəsinə qətlə yetirilib. "Menşeviklərin "Naş qolos" qəzeti həmin günləri belə təsvir edirdi: "Hər tərəf meyitlərlə doludur - yanıb kül olmuş, doğranmış, eybəcər hala salınmış meyitlər..." Ötən illər ərzində həqiqətin üzə çıxarılması məqsədilə aparılmış araşdırmalar, tədqiqatlar sayəsində yeni-yeni faktlar və sənədlər toplanıb, Quba şəhərində kütləvi məzarlıq aşkarlanıb, abidə kompleksi inşa edilib. Üzə çıxmış tarixi faktlar 108 il öncə mart-aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin azərbaycanlılara qarşı törətdikləri insan adına sığmayan cinayətlərin coğrafiyasının daha geniş, soyqırımı qurbanlarının sayının qat-qat çox olduğunu sübuta yetirir. Xalqımız erməni millətçilərinin üz qarası olan bu qanlı cinayətləri heç zaman unutmayacaq.

Ən başlıcası isə odur ki, 44 gün davam etmiş Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə şanlı Azərbaycan Ordusu işğalçı Ermənistan silahlı birləşmələrini tarixi torpaqlarımızdan qovub çıxardı. Hərb tariximizə heç zaman unudulmayacaq və həmişə qürur hissi doğuran səhifələr yazdı. Azərbaycan əsgəri şəhidlərimizin qisasını aldı, torpaqlarımız mənfur düşmənin işğalından azad edildi, ərazi bütövlüyümüz təmin olundu", - deyə muzey rəisi qeyd etdi.

Tədbirdə muzeyin tədqiqatçı baş elmi işçisi, professor Hacı Həsənov "31 mart soyqırımı - müsəlman türk xalqına qarşı törədilmiş cinayət", Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun professoru siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent Vüqar Məmmədzadə "Etnik təmizləmədən milli strategiyaya: 31 martın tarixi dərsləri" adlı məruzələrlə çıxış etdilər. Vurğulandı ki, bu gün Azərbaycan güclü dövlət, sabit cəmiyyət və məqsədyönlü milli strategiya ilə öz təhlükəsizliyini təmin etməkdədir. Lakin tarixdən çıxarılan dərslər daim yadda saxlanmalı və strateji qərarların qəbulunda nəzərə alınmalıdır. 31 mart hadisələri yalnız matəm günü deyil, həm də milli düşüncənin formalaşması, dövlətçilik şüurunun möhkəmlənməsi və gələcəyə daha inamla baxmaq üçün bir çağırışdır. Belə ağır soyqırımı cinayətləri heç zaman xalqın və tarixin yaddaşından silinmir.

Tədbirdə 31 mart soyqırımına həsr olunmuş qısametrajlı sənədli film nümayiş olundu.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Ömürlərini Vətənə fəda edən qəhrəmanlarımız

(Əvvəli 4-cü səhifədə)

Elnur 1998-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq Məktəbini (indiki Heydər Əliyev adına Hərbi İnstitut) bitirir, artıq təcrübəli hərbçi kimi hərbi hissələrdə cəsur, cəsarətli əsgərlər yetişdirirdi.

2016-cı il aprelin 1-i mayor Elnur Əliyev də Füzuli-Xocavənd istiqamətində qızğın döyüşlər haqqında xəbər alır. Elnur hərbçilərdən ibarət bir qrupda Lələtəpə istiqamətinə göndərilir və döyüşlərə qoşulur.

İgid zabitimiz döyüş əməliyyatları zamanı şücaət göstərərək şəhidlik zirvəsinə yüksəlir. Aprelin 3-ü Elnur Əliyev Füzuli rayonunda son mənzilə yola salınır.

Elnur Əliyev göstərdiyi şücaətə görə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub.

* * *



Mayor **Urfan Vəlizadə** 1978-ci il noyabrın 1-də Bakı şəhərində anadan olub. Məktəbi bitirən kimi Türkiyə Hava Hərbi Məktəbinə daxil olan Urfan burada təhsil alır. İstanbulda 6 ay xidmət edəndən sonra Vətənə qayıdır. 2005-ci ilə qədər "N" hərbi hissəsində xidmətini davam etdirərək, ixtisasını hərbi helikopter üzrə təkmilləşdirir.

2016-cı ilin Aprel döyüşlərində hava yolu ilə düşmən tanklarının qarşısını almaq əmri verilir. Mayor Urfan Vəlizadə, mayor Təbriz Musazadə və baş leytenant Əbu Bəkir İsmayılov birgə idarə etdikləri Mi-24 helikopterində Füzuli istiqamətində gedən döyüşlərə qatılaraq, erməni mövqelərinə davamlı aviasiya zərbələri endirirlər. Bu döyüş tapşırığının icrası düşmənin hücumunun dəf olunmasında həlledici rol oynayır. Lakin cəsur Vətən oğullarının helikopteri döyüş tapşırığını yerinə yetirib qayıdan zaman düşmən tərəfindən vurulur. Pilotlarımız şəhid olurlar. Onların nəşi aprelin 10-da ərazidən götürülür. Aprelin 11-də Bakıda igid pilotlarla vida mərasimi keçirilib. Pilotlarımız İkinci Fəxri xiyabanda izdihamla son mənzilə yola salınıblar.

Urfan Vəlizadə ölümündən sonra göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

* * *



Mayor **Təbriz Musazadə** 1981-ci il avqustun 12-də Gürcüstan Respublikasının Dmanisi (Başkeçid) rayonunda anadan olub. 1999-cu ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, 2003-cü ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbini, 2004-cü ildə Uçuş Texniki Hazırlığı Təlim Mərkəzini, 2011-ci ildə Türkiyə Respublikasında Uçuş Təhlükəsizliyi kursunu bitirib.

Mayor Təbriz Musazadə hərb sənətini müqəddəs missiya kimi qəbul edən zabitlərdən biri olub. O, gənc yaşlarından pilot olmağı, Vətənə sədaqətlə xidmət etməyi həyat amalına çevirmiş, hərbi təhsil alaraq Hərbi Hava Qüvvələrinin sıralarında xidmətə başlamışdı. Uçuşa olan böyük həvəsi, texniki bilikləri və cəsarəti onu qısa müddətdə peşəkar pilot kimi yetişdirmişdir.

Təbriz Musazadə xidmət müddəti ərzində Azərbaycan Respublikası Prezidentinin adından və Müdafiə nazirinin əmrinə əsasən müxtəlif medallarla təltif olunub.

2016-cı ilin Aprel döyüşləri zamanı Təbriz Musazadə fəal pilot kimi fərqləndi. O, düşmənin hərbi mövqelərinə zərbələr endirərək ordumuzun düşmən üzərinə şığımasına mühüm dəstək verib. Son döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Vətən qarşısında göstərdiyi şücaətə görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə (ölümündən sonra) "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Şəhid pilot Təbriz Musazadə öz igidliyi ilə Azərbaycan xalqının yaddaşında əbədi məskən saldı.

* * *

Kapitan **Mühüd Orucov** 13 iyul 1984-cü ildə Qazax rayonunun Fərəhli kəndində anadan olub. O, orta təhsilini doğma kəndində alıb, 8-ci sinfi başa vurduqdan sonra Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olub. 2002-ci ildə liseyi bitirən Mühüd təhsilini davam etdirmək üçün Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) qəbul olunub. 2006-cı ildə ali hərbi məktəbi "Qoşun kəşfiyyatı" ixtisası üzrə uğurla başa vurub.

Bilik və bacarıqlarını artırmaq məqsədilə Türkiyədə xüsusi kurs keçən Mühüd kurs zamanı Azərbaycan komandası tərkibində yüksək nəticə göstərərək birinci yerə layiq görülür. Xidmət etdiyi dövrdə bir sıra uğurlu hərbi əməliyyatlarda iştirak edir və öz peşəkarlığı ilə seçilir.

Mühüd Orucov 2014-cü ilin avqustunda ön xətdə düşmən təxribatının qarşısının alınmasında fəal iştirak edib. Həmin əməliyyatda göstərdiyi şücaətə görə Ali Baş Komandan tərəfindən mükafatlandırılıb.

Kapitan Mühüd Orucov 2016-cı ilin aprelində Azərbaycan-Ermənistan təmas xəttində baş verən döyüşlər zamanı şəhid olub. Aprelin 12-də isə doğulub boya-başa çatdığı Qazax rayonunun Fərəhli kəndində dəfn edilib.

Göstərdiyi igidliyə görə ölümündən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "İgidliyə görə" medalına layiq görülüb.

Mühüd Orucov kimi cəsur



oğulların həyat yolu və göstərdiyi şücaət Azərbaycan xalqının yaddaşında əbədi yaşayır. Onlar Vətən torpağını canları bahasına qoruyaraq, gələcək nəsillərə azadlıq və qürur mirası qoyublar. Aprel şəhidləri bir daha sübut etdilər ki, bu torpağın hər qarışı uğrunda son nəfəsədək mübarizə aparmağa hazır olan igidlər var.

* * *

Peşəyə sevgi içdən gələr, - deyiblər. Yadımdadır, sanki hadisə dünən baş verib. Rayonda avtomobil təmirə aparmışdım. Usta yanında kursant papaqlı bir yeniyetmə vardı. Əsmər, gülərüz, çevik yeniyetmə olduqca qürurlu görünürdü. O, daha çox başındakı papaqla qürrələnirdi. Həmin yeniyetmədən soruşdum:

- Adın nədi?
- Sərxan.
- Kimin oğlusan?
- Usta Oktayın.
- Kursant, papağın haradandı sənə?
- Qardaşım kursantdı, məzuniyyətə gəlib, onundu. Mən də böyüyəndə hərbçi olacağam. Döyüşüb erməniləri Qarabağdan qovacağam.

Balaca **Sərxanın** hazırcavablığı məni heyrətləndirmişdi. Atası bizim söhbətimizə qulaq verib gülümsəmişdi də. Oğlunu indidən hərbçi görməsi, özü də vətənpərvər birisi olacağını eşidəndə sevinc göz yaşlarını saxlaya bilməmişdi. Sərxan bu qısa tanışlıqdan sonra qəlbimdə böyüdü.

Bu hadisədən bir neçə il sonra xəbər tutdum ki, Sərxan əsgərliyini başa vurub, Xüsusi Təyinatlı Qüvvələrdə kurs keçərək "kiçik gizir" rütbəsi ilə hərbi xidmətinə davam edir. Onun sözünün üstündə durmağı mənə də xoş təsir bağışlamışdı...

2016-cı ilin mart ayı idi. Sərxan Novruz bayramını keçirmək üçün doğmalarının yanına gəlmişdi. Həm də onun elçiliyi idi. Valideynləri bayramda onun sevdiyi qızın ailəsinə ilk tanışlıq üçün ayaq açmışdı. Çox keçmədi Sərxanı xidmət yerinə təcili çağırdılar. Cəbhədə düşmənlə təmas xəttində vəziyyət gərginləşmişdi. Düşmənin təxribatının qarşısını almaq məqsədilə Sərxanın da xidmət etdiyi bölmə cəbhə bölgəsinə göndərildi. Ermənilər yeni ərazilərin iddiasına düşmüşdülər. Goranboy rayonunun Talış kəndi istiqamətində vəziyyət daha gərgin olduğu üçün Sərxangil aprelin ilk günlərində döyüşə cəlb edildi. Qrupda Sərxan ən gənc döyüşçülərdən biri idi. Lakin Sərxan döyüşdə özünü gənc kimi hiss etdirmədi. Sonuna qədər düşmənə qarşı mərdliklə vuruşdu. Sonda Sərxanın döyüşdüyü qrup meşədə düşmənin mühasirəsinə düşdü. Onlar son güllə bitənə qədər döyüşərək şəhid oldular. Bu, Sərxanın ilk və son döyüşü oldu.

Sərxan Oktay oğlu Bayramov Zaqatala şəhər qəbiristanlığında rayon rəhbərliyinin və ictimaiyyətin nümayəndələrinin izdihamı ilə dəfn edildi.

1994-cü il mayın 12-də



tərəflər arasında bağlanan atəşkəsdən sonra Azərbaycanın hərb tarixinə "Aprel döyüşləri" kimi düşən bu savaş miqyas etibarilə ən böyük döyüş oldu. Bu döyüşdə ordumuz bir neçə mühüm əhəmiyyətli yüksəkliyi azad etdi.

Artıq beş ildən çoxdur ki, torpaqlarımız rəşadətli ordumuz tərəfindən azad edilib. Ölkəmizin ərazi bütövlüyü tam bərpa olunub. Bu gün Sərxanın və bütün şəhidlərin ruhu şaddır. Onların qanı, canı bahasına Zəfər qazandıq. Şəhidlərin göstərdikləri qəhrəmanlıqlardan çox yazılıb və bundan sonra da yazılacaqdır.

* * *

**Kiçik çavuş Ruhin Qəhrəmanov** 10 oktyabr 1994-cü ildə İmişli rayonunda doğulub. O zaman ata-baba yurdu Cəbrayıldan məcburi köçkün düşmüş Qəhrəmanovlar ailəsi İmişli rayonunda müvəqqəti olaraq məskunlaşmışdılar. Ruhinin atası Əşrəf Qəhrəmanov Birinci Qarabağ müharibəsi zamanı Cəbrayıl rayonunun vətənpərvər, qeyrətli oğullarından ibarət yaradılan özünümüdafiə dəstələrində erməni yaraqlılarına qarşı mərdliklə döyüşmüşdü. Müharibə veteranı idi.

Vətənsevər ailədə doğulub böyümüş Ruhin müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra Azərbaycan Ordusunun sıralarında xid-



mətini davam etdirir. Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində xidmətə başlayan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ruhin Qəhrəmanov Vətənin müdafiəsində əzmlə dayanır. Təlimlər zamanı döyüş bacarığını artırır, silah və texnikanın taktiki-texniki xüsusiyyətlərini dərindən öyrənir.

2016-cı il aprelin 2-də Ermənistan silahlı qüvvələrinin cəbhə boyu törətdiyi irimiqyaslı təxribatlarına qarşı Azərbaycan Ordusunun Cəbrayıl-Füzuli istiqamətində keçirdiyi əks-həmlə əməliyyatları zamanı Ruhin Qəhrəmanov döyüş tapşırığını yüksək bacarıqla yerinə yetirərkən şəhidlik zirvəsinə ucalır. Şəhid Ruhin Qəhrəmanov Beyləqan rayonunda dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Ruhin Qəhrəmanov ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilib.

* * *

Bu il Aprel döyüşlərindən 10 il ötür. 2016-cı ilin 2-5 aprel tarixlərində baş vermiş bu hərbi əməliyyat Azərbaycan tarixində ən mühüm dönüş nöqtələrindən biri kimi yadda qaldı. Qısa, lakin uğurlu döyüşlər nəticəsində Azərbaycan Ordusu vaxtilə işğal altında olmuş bir sıra yüksəklikləri və yaşayış məntəqələrini azad edərək böyük üstünlük əldə etdi. Aprel döyüşləri həm hərbi uğur, həm də xalq-ordu birliyinin, milli iradənin və Vətən sevgisinin bariz nümunəsinə çevrildi. Aprel döyüşləri Azərbaycan əsgərinin döyüş qabiliyyətini, texniki hazırlığını və qələbə əzmini nümayiş etdirdi. 2016-cı ilin Aprel döyüşləri 2020-ci ildə başlayan və 44 gün davam edən Vətən müharibəsində qazanılan tarixi Zəfərə gedən yolun başlanğıcı idi.

**"Azərbaycan Ordusu"**

## Milli Müdafiə Universiteti xüsusi təyinatlı təhsil müəssisələrinə sənəd qəbulunu davam etdirir




Müdafiə Nazirliyinin Milli Müdafiə Universiteti cari il mayın 31-dək Heydər Əliyev adına Hərbi İnstituta, Bakı hərbi tibb fakültəsinə, Bakı və Naxçıvan Hərbi kolleclərinə, Heydər Əliyev adına və Cəmşid Naxçıvanski adına Hərbi liseylərə elektron sənəd qəbulunu davam etdirir.

Bu barədə AZƏRTAC-a Milli Müdafiə Universitetindən məlumat verilib.

Bildirilib ki, Azərbaycan Respublikasının vətəndaşları istənilən bölgədən **mmu.edu.az** saytının "Təhsil müəssisələrinə qəbul" bölməsindən müraciət etməklə seçdikləri təhsil müəssisəsinə aid sənəd qəbulu portalına keçid edərək, müvafiq portaldakı "Sənədlər" hissəsindən prosesə bağlı məlumatları əldə edə bilərlər (qadın cinsli vətəndaşların qəbulu yalnız Heydər Əliyev adına Hərbi İnstituta, Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinin "Hərbi həkim" və "Hərbi feldşer işi" ixtisaslarına nəzərdə tutulub).

Vətəndaşları maraqlandıran suallara bağlı Milli Müdafiə Universitetinin Çağrı mərkəzi - *0811 (iş günlərində saat 09:00-dan 17:30-dək) və **admission@mmu.edu.az** elektron poçt ünvanı fəaliyyət göstərir.

"Fəxr edəcəyin gələcəyi seç!", - deyə məlumatda vurğulanıb.

## Tibb ixtisaslı məzunlar üçün Azərbaycan Ordusunda yeni xidmət konsepsiyası tətbiq edilir

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan islahatlar uğurla davam etdirilir.

Müdafiə Nazirliyi xəbər verir ki, aparılan islahatlar çərçivəsində tibb sahəsində ixtisaslaşmış gənc kadrların bilik və bacarıqlarından daha səmərəli faydalanmaq, eyni zamanda, onların karyera inkişafına töhfə vermək məqsədilə Müdafiə Nazirliyində hərbi xidmətkeçmə ilə bağlı yeni konsepsiya tətbiq ediləcək.

"Hərbi xidmətkeçmə haqqında Əsasnamə"yə və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna edilən dəyişikliklərə əsasən, ali tibb ixtisaslı çağırışçılar öz arzuları ilə bir il "leytenant" hərbi rütbəsində hərbi həkim olaraq xidmət edəcəklər.

Tibb ixtisaslı gənc əsgərlərə Milli Müdafiə Universitetində (MMU) təşkil ediləcək 30 günlük ilkin hazırlıq kursunda hərbi intizam qaydaları, silahdan istifadə, eləcə də hərbi tibb xidmətində tətbiq olunan sənədləşmə və tibbi qeydiyyat qaydaları tədris ediləcək.

Bundan başqa, zabit vəzifələrində xidmət etdikləri dövrdə hərbi həkimlər aylıq məvaciblə təmin olunmaqla hərbi qulluqçular üçün qanunla nəzərdə tutulmuş bütün hüquqlardan, eləcə də ailə tərkibi nəzərə alınmaqla dövlət tərəfindən ödənilən mənzil kirayəsi əvəzinə pul kompensasiyası və digər təminatlardan yararlanacaqlar.

Hərbi həkimlərin maddi rifah halının yaxşılaşdırılması məqsədilə onların sosial təminatı və ərazi prinsipi üzrə xidmət etmələri də nəzərə alınacaq. Bu yanaşma onların yaşayış və məskunlaşma məsələlərinin daha rahat həllinə imkan yaradacaq.




Müddətli həqiqi hərbi xidmət müddəti başa çatdıqdan sonra hərbi həkimlər öz seçimlərinə uyğun olaraq kadr zabit kimi xidmətlərini davam etdirə və yaxud ehtiyata buraxıla bilərlər.

# Xəbərlər: hadisələr, faktlar

### İrandan atılan növbəti raket Türkiyənin hava məkanında zərərsizləşdirilib



Türkiyənin Milli Müdafiə Nazirliyi martın 30-da ölkənin hava məkanına daxil olan İrana məxsus növbəti ballistik raketin məhv edildiyini açıqlayıb.

İrandan atılan raket NATO-nun Şərqi Aralıq dənizində yerləşən hava hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilib.

Milli Müdafiə Nazirliyindən bildirilib ki, Türkiyənin ərazisinə və hava məkanına yönəlmiş bütün təhdidlərə qarşı qətiyyətlə və tərəddüd etmədən müvafiq tədbirlər görülür: "Ankara regiondakı bütün prosesləri milli təhlükəsizliyin prioriteti olaraq qəbul edir və diqqətlə izləyir".

Məlumata görə, bu, mart ayında Türkiyənin cənubunda zərərsizləşdirilən sayca dördüncü İrana məxsus ballistik raketdir.

### Rubio: ABŞ-nin İrana qarşı hərbi əməliyyatı sona yaxınlaşır



ABŞ-nin İrana qarşı hərbi əməliyyatı sona yaxınlaşır.

Bu barədə ABŞ Dövlət katibi Marko Rubio "Fox News" telekanalına müsahibəsində bildirib.

"Biz artıq finiş xəttini görürük. Bu, bu gün və ya sabah baş verməyəcək, amma baş verəcək. Ordumuzun bütün məqsədlərinə çatacağı nöqtəyə yaxınlaşırıq", - deyə o qeyd edib.

Rubionun sözlərinə görə, Vaşinqton İranın Hərbi Hava Qüvvələrinin və donanmasının sıradan çıxarılması, hərbi-sənaye kompleksinin zəiflədilməsi, eləcə də əhəmiyyətli sayda raket buraxılış məntəqələrinin məhv edilməsi kimi məqsədlərin icrasında planlaşdırılandan daha sürətlə irəliləyir.

### Rusiyanın "An-26" təyyarəsi qəzaya uğrayıb, 29 nəfər həlak olub



Rusiyanın "An-26" hərbi-nəqliyyat təyyarəsi qəzaya uğrayıb. Qəza nəticəsində 23 sərnişin və 6 heyət üzvü olmaqla, ümumilikdə 29 nəfər həlak olub.

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumata görə, martın 31-də Moskva vaxtı ilə saat 18:00 radələrində Krım yarımadası üzərində planlaşdırılmış uçuş həyata keçirilərkən "An-26" təyyarəsi ilə əlaqə kəsilib. Axtarış-xilasetmə qrupu qəza yerini müəyyən edib. Hadisə yerindən daxil olan məlumatlara əsasən, göyərtədə olan bütün şəxslər həlak olublar.

Rusiya Müdafiə Nazirliyinin komissiyası hazırda qəza yerində işləyir. İlkin ehtimala görə, qəzanın səbəbi texniki nasazlıqdır.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman

### Vətən müharibəsi əlili qızıl medala layiq görülüb



Yunanıstanın Afina şəhərində keçirilən turnirdə Azərbaycan milli yığma komandası 23 idmançı ilə təmsil olunub və ümumilikdə 21 medal əldə edib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin əməkdaşı, Vətən müharibəsi əlili Ruslan Şıxıyev "Acropolis International Wushu Open Tournament" beynəlxalq turnirində qızıl medal qazanıb.

O, 75 kiloqram çəki dərəcəsində "Light sanda" üzrə bütün rəqiblərini məğlub edərək turnirin qızıl medalına layiq görülüb.

### Azərbaycan üzgüçüləri Gürcüstanda 47 medal qazanıblar



Azərbaycan idmançıları Gürcüstanda keçirilmiş üzgüçülük üzrə Kutaisi Açıq Yaz Kubokunda 47 medal qazanıblar.

Bunlardan 18-i qızıl, 19-u gümüş, 10-u bürünc mükafatdır.

Yarışda Azərbaycanı 8 üzgüçü təmsil edib.

Milli komandanın heyətində Fərhad Şirməmmədli, Mehri Əbdürəhmanlı və Süleyman İsmayılzadə, eləcə də Anastasiya Qnusina, Arif Tapdıqov, Mehdi Muxtarlı, Safiya Səmədova və Yusif Sofiyev qüvvələrini sınayıblar.

Süleyman İsmayılzadə ümumi kateqoriya üzrə, Fərhad Şirməmmədli isə 2010-cu il təvəllüdlü və daha kiçik yaş üzrə ən yaxşı nəticə göstərərək kuboka layiq görülüblər.

Həmçinin yarış Azərbaycan üzgüçüləri üçün rekord nəticələrlə də əlamətdar olub. Mehri Əbdürəhmanlı 50 metr arxasıüstə üzmə növündə 31.47 saniyə nəticə göstərərək Azərbaycan rekordunu yeniləyib, Süleyman İsmayılzadə isə 400 metr sərbəst üsulda 3:54.70 nəticə ilə yeni ölkə rekorduna imza atıb.

### Azərbaycanı badminton üzrə Avropa çempionatında üç idmançı təmsil edəcək



İspaniyanın Uelva şəhərində keçiriləcək badminton üzrə Avropa çempionatında iştirak edəcək Azərbaycan idmançıları bəlli olub.

Turnirdə ölkəmizi üç idmançı təmsil edəcək. Belə ki, kişilərin şəxsi yarışında Edi Reski Dviçayo ilə Diki Pangestu, qadınların şəxsi yarışında isə Keişa Fatimə Zəhra mübarizə aparacaq.

Çempionat aprelin 6-dan 12-dək davam edəcək.

**AZƏRTAC-ın materialları əsasında**

Baş leytenant Hacıyev Murad Elşən oğluna verilmiş MN № 0059661 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Tibb xidməti leytenantı Əsədzadə Turqut Qafur oğluna verilmiş MN № 0056646 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Gizir Məmmədov İlkin İlham oğluna verilmiş SQ № 0031258 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Səməndərli Gündüz Səməndər oğluna verilmiş AD № 0047878 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Quliyev Elşən Şamil oğluna verilmiş AD № 0023106 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Quliyev Nicat Bəxtiyar oğluna verilmiş AD № 0038451 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mehdiyev Nəbi Şakir oğluna verilmiş AD № 0030003 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Paşazadə Elxan İlqar oğluna verilmiş AD № 0048576 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Xəlfiyev Anar Elman oğluna verilmiş AD № 0022992 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Sadıqov Emin Ərşad oğluna verilmiş AD № 0064094 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Yusibova Turac Nizami qızına verilmiş MV № 108259 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Redaktor
mayor
Ceyhun CƏFƏRLİ

Telefon
Müdafiə Nazirliyinin
Hərbi Nəşriyyatı üzrə növbətçi:
(012) 404-76-22

Ünvanımız
Bakı şəhəri, Yasamal rayonu,
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

Qəzetin hesabı
2 saylı Xəzinədarlıq
Kod: 200189
VÖEN: 1500444791

"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

Növbətçi
Lalə HÜSEYNOVA

Lisenziya № 361
Sifariş № 341
Nüsxə 3653